Ədəbiyyat qəzeti

5 dekabr 2020-ci il 15

# Ağalar İDRİSOĞLU - 70



Hörmətli Ağalar müəllim!

Sizi - tanınmış yazıçı, dramaturq və publisisti 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1975-ci ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini və 1986-cı ildə Moskvada Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunu bitirmisiniz. Uzun illər ölkəmizin müxtəlif aparıcı teatrlarında rejissor kimi səmərəli fəaliyyət göstərmisiniz. Azərbaycan Teatr Xadimləri İttifaqı Sumqayıt şöbəsinin müdiri, "Azad Azərbaycan" qəzetinin şöbə müdiri vəzifələrində işləmisiniz. Uzun illərdir Azərbaycan Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissorusunuz. Ədəbi ictimaiyyət sizi həm də istedadlı yazıçı kimi tanıyır. Siz əlli ildən çoxdur ki, bədii yaradıcılıqla məşğulsunuz. İlk məqalə, oçerk, miniatür və kiçik hekayələriniz 1966-1967-ci illərdə "Azərbaycan pioneri" və Masallı rayonunun "Çağırış" qəzetlərində dərc olunub. "Qonaq", "Məhkəmədən əvvəl məhkəmə", "Çarəsiz oyun", "İmam Şamil", "Öz qanunları olan şəhər", "Bir gecənin əhvalatı", "Günahsız qurban" və s. pyesləriniz, "Ulu tanrı və ağ gəmi əhvalatı", "Bura vətəndir", "Ramiz İslamoğlu sorağında və ya əkmə qəm ağacı", "Mümkün olmayanı mümkün eyləyən kişi", "Ömür yolları", "Bir alim ömrünün salnaməsi" kimi povest və romanların, yüz əllidən artıq hekayə, esse, elegiya, novella, mindən artıq publisistik məqalə, elmi yazı və resenziyaların müəllifisiniz. Pyesləriniz Azərbaycan Dövlət Gənclər Teatrında, Ağdam, Mingəçevir, Sumqayıt, Füzuli Dövlət Dram Teatrlarında, və keçmiş Sovetlər İttifaqının bir neçə teatr studiyasında tamaşaya qoyulub.

1982-ci ildə "Həyatın astanasında" adlı pyesiniz respublika müsabiqəsinin mükafatına layiq görülmüş, 1985-ci ildə "İnan mənə" pyesiniz Moskvada keçirilən Ümumittifaq gənc dramaturqlar müsabiqəsində ən yaxşı üç pyesdən biri kimi diplom və pul mükafatı ilə dəyərləndirilib. "Şah İsmayıl" pyesi Azərbaycan Mədəniyyət Nazirliyinin 2010-cu ildə keçirdiyi müsabiqədə 2-ci dərəcəli mükafata layiq görülüb. "İnan mənə", "Ən xoşbəxt gün" və "Kəfənini geymiş qoca", "Qaranlığı yaran işıq" (Maarif Teymurla birlikdə), "Dünya Azərbaycanlıları" (müştərək), "Bir alim ömrünün salnaməsi", "Vicdan mühakiməsi" adlı kitablarınız və on beşdən artıq topluda hekayə, pyes, tərcümələriniz çap olunub. Tərcüməçi kimi də çox işlər görmüsünüz. Dünya ədəbiyyatından dilimizə çevirdiyiniz pyeslərin bir neçəsi ayrı-ayrı dövlət teatrlarında tamaşaya qoyulub. 1997-2000-ci illərdə Azərbaycan-Dağıstan Beynəlmiləl Estrada Teatr Truppasına rəhbərlik etdiyiniz vaxt Azərbaycan və Dağıstan xalqlarının dostluq əlaqələrinin möhkəmlənməsi üçün çox uğurlu işlər görməklə yanaşı, həm də bu dostluğa aid "Sərhədsiz dünyamız" adlı bədii-sənədli əsər yazmısınız. 2005-ci ilin mart ayında "Avropa, Nəşr və Mətbu" müsabiqəsində "İlin ən yaxşı vətənpərvər yazıçı-rejissoru" nominasiyasında diplom və medalla təltif olunmusunuz. 2013-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüsünüz.

Hörmətli Ağalar müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**